*“Metafizika” Journal* *AcademyGate Publishing*
*Vol 8, issue 8, serial 36, 2025. pp.282-297* *p-ISSN 2616-6879; e-ISSN 2617-751X*
**UDC:** 32.; 323.
**LBC:** 63.3(2)6-6; 63.3 (2)64; 63.3(5 e)64
**MJ №** 407
10.33864/2617-751X.2025.v8.i8.282-297

# ADMINISTRATIVE-LEGAL TRANSFORMATION AND ETHNIC DEMOGRAPHIC CHANGES OF THE ZANGEZUR REGION (1805-1917): HISTORICAL-POLITICAL ANALYSIS BASED ON ARCHIVE MATERIALS

**Amin Taghiyev***

**Abstract.** This study examines the administrative-legal transformation and ethnodemographic shifts in the Zangezur region during the 19th century, within the framework of the Russian Empire’s policies in the South Caucasus. Drawing upon archival documents, cadastral descriptions, census materials, and legal acts, the research demonstrates that the establishment of Zangezur as an administrative unit (1832-1833) served not only governance purposes but also functioned as an instrument of ethnic engineering. Between 1832 and 1874, the demographic composition shifted from a Muslim majority to near parity, and from 1874 to 1917, certain administrative districts saw an Armenian majority emerge, largely due to mass resettlement and planned settlement policies. The findings reveal that the demographic foundations of later ethno-political conflicts in the region were laid in the 19th century.

**Keywords:** Zangezur, administrative reforms, ethnodemographic change, Russian Empire, resettlement policy, South Caucasus history, 19th century

* Doctoral student at the Department of World Economy of Azerbaijan State University of Economics; Baku, Azerbaijan
E-mail: amin-taghiyev@unec.edu.az
https://orcid.org/0000-0002-6912-5069

**To cite this article:** Taghiyev, A. [2025]. ADMINISTRATIVE-LEGAL TRANSFORMATION AND ETHNIC DEMOGRAPHIC CHANGES OF THE ZANGEZUR REGION (1805-1917): HISTORICAL-POLITICAL ANALYSIS BASED ON ARCHIVE MATERIALS. *“Metafizika” journal, 8*(8), pp.282-297.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i8.282-297

***Article history:***
*Received: 21.10.2025*
*Accepted: 17.11.2025*
*Published: 01.12.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

**УДК:** 32.; 323.
**ББК:** 63.3(2)6-6; 63.3 (2)64; 63.3(5 e)64
**MJ №** 407
10.33864/2617-751X.2025.v8.i8.282-297

# АДМИНИСТРАТИВНО-ПРАВОВЫЕ ПРЕОБРАЗОВАНИЯ И ЭТНОДЕМОГРАФИЧЕСКИЕ ИЗМЕНЕНИЯ ЗАНГЕЗУРСКОГО КРАЯ (1805-1917): ИСТОРИКО-ПОЛИТИЧЕСКИЙ АНАЛИЗ ПО АРХИВНЫМ МАТЕРИАЛАМ

**Амин Тагиев***

**Абстракт.** В настоящем исследовании рассматриваются административно-правовые преобразования и этнодемографические сдвиги в Зангезурском регионе в XIX веке в рамках политики Российской империи на Южном Кавказе. Опираясь на архивные документы, кадастровые описания, материалы переписей и правовые акты, исследование показывает, что создание Зангезура как административной единицы (1832-1833 гг.) преследовало не только цели управления, но и служило инструментом этнической инженерии. В период с 1832 по 1874 год демографический состав населения изменился с мусульманского большинства на почти паритетный, а с 1874 по 1917 год в некоторых административных районах появилось армянское большинство, во многом благодаря массовому переселению и плановой политике заселения. Результаты исследования показывают, что демографические основы последующих этнополитических конфликтов в регионе были заложены в XIX веке.

**Ключевые слова:** Зангезур, административные реформы, этнодемографические изменения, Российская империя, переселенческая политика, история Южного Кавказа, XIX век

---

* Докторант кафедры «мировой экономики» Азербайджанский Государственный Экономический Университет; Баку, Азербайджан
E-mail: amin-taghiyev@unec.edu.az
https://orcid.org/0000-0002-6912-5069

**Цитировать статью:** Тагиев, А. [2025]. АДМИНИСТРАТИВНО-ПРАВОВЫЕ ПРЕОБРАЗОВАНИЯ И ЭТНОДЕМОГРАФИЧЕСКИЕ ИЗМЕНЕНИЯ ЗАНГЕЗУРСКОГО КРАЯ (1805-1917): ИСТОРИКО-ПОЛИТИЧЕСКИЙ АНАЛИЗ ПО АРХИВНЫМ МАТЕРИАЛАМ. *Журнал «Metafizika», 8*(8), с.282-297.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i8.282-297

***История статьи:***
*Статья поступила в редакцию: 21.10.2025*
*Отправлена на доработку: 17.11.2025*
*Принята для печати: 01.12.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

**UOT:** 32.; 323.
**KBT:** 63.3(2)6-6
**MJ №** 407
10.33864/2617-751X.2025.v8.i8.282-297

# ZƏNGƏZUR BÖLGƏSİNİN İNZİBATİ-HÜQUQİ TRANSFORMASİYASI VƏ ETNODEMOQRAFİK DƏYİŞİKLİKLƏRİ (1805-1917): ARXİV MATERİALLARI ƏSASINDA TARİXİ-SİYASİ TƏHLİL

**Amin Tağıyev***

**Abstrakt.** Məqalə XIX əsrdə Zəngəzur bölgəsinin inzibati-hüquqi statusunun formalaşması və etnodemoqrafik tərkibinin dəyişməsi proseslərini Rusiya imperiyasının Cənubi Qafqaz siyasəti kontekstində araşdırır. Tədqiqat arxiv sənədləri, kameral təsvirlər, siyahıyaalma materialları və hüquqi aktlar əsasında aparılmışdır. Təhlillər göstərir ki, Zəngəzurun inzibati vahid kimi formalaşması (1832-1833-cü illər) təkcə idarəçilik məqsədi daşımamış, həm də etnik mühəndislik aləti kimi istifadə olunmuşdur. 1832-1874-cü illərdə müsəlmanların nisbi çoxluğundan etnik tarazlığa keçid, 1874-1917-ci illərdə isə bəzi inzibati dairələrdə erməni üstünlüyü kütləvi köçürmələr və planlı məskunlaşdırma siyasəti ilə bağlı olmuşdur. Araşdırmanın nəticələri bölgədə sonrakı milli-siyasi qarşıdurmaların demoqrafik əsaslarının XIX əsrdə qoyulduğunu göstərir.

**Açar sözlər:** Zəngəzur, inzibati islahatlar, etnodemoqrafik dəyişiklik, Rusiya imperiyası, köçürmə siyasəti, Cənubi Qafqaz tarixi, XIX əsr

* Azərbaycan Dövlət İqtisad Universiteti, Dünya iqtisadiyyatı kafedrasının doktorantı; Bakı, Azərbaycan
E-mail: amin-taghiyev@unec.edu.az
https://orcid.org/0000-0002-6912-5069

**Məqaləyə istinad:** Tağıyev, A. [2025]. ZƏNGƏZUR BÖLGƏSİNİN İNZİBATİ-HÜQUQİ TRANSFORMASİYASI VƏ ETNODEMOQRAFİK DƏYİŞİKLİKLƏRİ (1805-1917): ARXİV MATERİALLARI ƏSASINDA TARİXİ-SİYASİ TƏHLİL. *“Metafizika” jurnalı, 8*(8), səh.282-297.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i8.282-297

**Məqalənin tarixçəsi:**
*Məqalə redaksiyaya daxil olmuşdur: 21.10.2025*
*Təkrar işlənməyə göndərilmişdir: 17.11.2025*
*Çapa qəbul edilmişdir: 01.12.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

## 1.Giriş

Zəngəzur bölgəsi XVIII əsrin ikinci yarısında Qarabağ xanlığının Qapan, Püsyan, Bərgüşad, Mehri və digər mahallarını əhatə edən ərazi vahidi kimi formalaşmışdır. XIX əsrin əvvəllərinə qədər ayrıca “Zəngəzur” inzibati vahidi mövcud deyildi; bu struktur Rusiya imperiyasının bölgəni işğalı və həyata keçirdiyi inzibati islahatlar nəticəsində meydana çıxmışdır.

1805-ci ildə Kürəkçay müqaviləsi ilə Qarabağ xanlığının Rusiya imperiyasına birləşdirilməsi və 1822-ci ildə xanlığın ləğv olunması bölgənin inzibati-hüquqi statusunda əsaslı dəyişikliklərin başlanğıcı oldu [Proklamatsiya generala Ermolova zhityelyam Karabakhskogo khanstva ot noyabrya 1822 goda, AKAK, tom 6, ch. 1, 1874, dok. 1299, s.850]. Qarabağ əyalətinin 1823-cü ilə aid statistik təsviri göstərir ki, bu dövrdə indiki Zəngəzur ərazisi Sisiyan, Bərgüşad, Bağabürc, Tatev, Püsyan, Qaraçorlu, Acanan-Türk mahalları və Qafan çayının sol sahilində yerləşən Çavundur mahalının bir hissəsindən ibarət idi [Opisanie Karabakhskoy provintsii, 1823].

Zəngəzurun XIX əsrdə keçdiyi inzibati transformasiya yalnız yerli idarəçilik məsələsi deyildi; bu, Rusiya imperiyasının Cənubi Qafqazda həyata keçirdiyi genişmiqyaslı etnik-siyasi mühəndislik strategiyasının mühüm komponenti idi. Arxiv materialları, rəsmi statistika və müqavilə mətnləri göstərir ki, bölgədə inzibati sərhədlərin dəyişdirilməsi ilə paralel şəkildə əhali tərkibində məqsədyönlü dəyişikliklər aparılmış, xüsusilə erməni əhalisinin sayının süni şəkildə artırılması siyasəti izlənmişdir.

Bu məqalə 1805–1917-ci illər arasında Zəngəzur bölgəsinin inzibati-hüquqi statusundakı dəyişiklikləri və etnodemoqrafik dinamikasını arxiv sənədləri və statistik mənbələr əsasında təhlil etməyi qarşısına məqsəd qoyur.

### 1.1.Metodologiya

Bu tədqiqat XIX əsrdə Zəngəzur bölgəsinin inzibati-hüquqi statusundakı dəyişiklikləri və etnodemoqrafik transformasiyasını öyrənmək üçün tarixi-coğrafi analiz və məkan-temporal rekonstruksiya yanaşmalarını birləşdirir. Araşdırmanın məqsədi, yalnız xronoloji ardıcıllığı təsvir etməklə kifayətlənməyib, inzibati islahatlar ilə etnik tərkib arasındakı səbəb-nəticə əlaqələrini ortaya qoymaqdır.

**Mənbə bazası iki əsas qrupa bölünür:**

*Birinci dərəcəli mənbələr:*

Rusiya imperiyasının qanunvericilik topluları və inzibati sərəncamları [*Polnoye sobranie zakonov Rossiyskoy imperii*, 1830-1874]; AKAK; Statistik təsvir və Kameral təsvirlər [1823, 1832-1833, 1874] və Ümumrusiya siyahıyaalması (1897); Qafqaz təqvimləri (1914, 1916); Beynəlxalq müqavilə mətnləri və diplomatik aktlar [*Gülüstan*, 1813; *Türkmənçay*, 1828]; Ermənistan Milli Arxivinin fondları [EMA, f. 93, siyahı 1]; Gürcüstan Milli

Arxivinin [STsIA, f.2, 2080] və Azərbaycan Respublikası Dövlət Arxivinin fondları.

*İkinci dərəcəli mənbələr:*

N.M.Şavrovun 1911-ci ildə çap edilmiş əsəri- köçürmələrin statistik təhlili; N. Əhmədlinin 2021-ci və 2022-ci illərdə nəşr olunmuş Zəngəzur mahalının və Zəngəzur qəzasının kameral təsvirləri; XIX əsr Qafqaz tarixinə dair digər akademik monoqrafiyalar və məqalələr.

**1.2.Metodlar:**

Statistik müqayisə və trend analizi: müxtəlif illərə aid əhali məlumatlarının müqayisəsi, artım və azalma templərinin hesablanması; Mənbə tənqidi: rəsmi statistik materiallarda müşahidə olunan uyğunsuzluqların və onların siyasi kontekstə bağlı səbəblərinin araşdırılması; Etnik yerləşim nümunələrinin diaxron təhlili: inzibati sərhəd dəyişiklikləri ilə əhali tərkibindəki transformasiyalar arasındakı əlaqənin müəyyənləşdirilməsi.

Metodoloji yanaşma faktların sadəcə ardıcıl təqdimatını deyil, həm də müxtəlif mənbələrdən əldə edilmiş məlumatların sintezini təmin edir. Bu yanaşma sayəsində XIX əsrin inzibati qərarlarının demoqrafik nəticələri empirik əsaslarla izah olunur və bölgədə sonrakı milli-siyasi proseslərin tarixi kökləri elmi dəlillərlə əsaslandırılır.

**2.Zəngəzurun tarixi-hüquqi statusunun formalaşması (1805–1828)**

Zəngəzur bölgəsinin XIX əsrin əvvəllərində keçdiyi inzibati-hüquqi transformasiya Cənubi Qafqazın ümumi siyasi və hərbi kontekstində baş verən hadisələrlə sıx bağlı idi. XVIII əsrin sonlarında Qarabağ xanlığının inzibati tərkibində Qapan, Püsyan, Bərgüşad, Mehri və digər mahallar mövcud idi, lakin “Zəngəzur” adlı ayrıca inzibati vahid hələ formalaşmamışdı. Bu dəyişikliklər yalnız XIX əsrin ilk rübündə, Rusiya imperiyasının bölgəni hərbi-siyasi nəzarət altına alması ilə reallaşdı.

1805-ci il 14 may tarixli Kürəkçay müqaviləsi ilə Qarabağ xanlığı Rusiya imperiyasının tabeçiliyinə qəbul olundu. Müqavilənin imzalanması ilə Qarabağ xanı İbrahimxəlil xan Rusiya imperatorunun vassalı statusunu qazandı, əvəzində xanlığın daxili idarəetməsi formal olaraq qorundu [Dogovor mezhdu Rossiyey i Persiyey, zaklyuchennyy v sele Gyulistan 12 oktyabrya 1813 goda, T. I; Berzhe, 1875]. 1813-cü il Gülüstan müqaviləsi isə Qacar dövləti ilə Rusiya arasında aparılan müharibənin (1804-1813) nəticəsi olaraq imzalandı və Qarabağ, o cümlədən gələcək Zəngəzur bölgəsinin Rusiya tərkibinə daxil olması beynəlxalq səviyyədə rəsmiləşdirildi.

1822-ci ildə Qarabağ xanlığının ləğvi imperiyanın bu ərazidəki inzibati nəzarətini dərinləşdirdi. General A.P.Yermolovun imzaladığı proklamasiya ilə xanlıq idarəçiliyi tamamilə ləğv edildi və Qarabağ əyaləti hərbi komendantlıq sistemi ilə idarə olunmağa başladı [*AKAK*, tom 6, ch. 1, 1874, dok. 1299, s.850]. 1823-cü ildə aparılan rəsmi təsvirə əsasən, bu dövrdə indiki Zəngəzur

ərazisində Sisiyan, Bərgüşad, Bağabürc, Tatev, Püsyan, Qaraçorlu, Acanan-Türk mahalları və Qafan çayının sol sahilində yerləşən Çavundur mahalının bir hissəsi mövcud idi [*Opisanie Karabakhskoy provintsii*, 1823].

Əhali tərkibi baxımından bölgədə ciddi dəyişikliklər müşahidə edilirdi. Müharibə və siyasi qeyri-sabitlik səbəbindən əhalinin əhəmiyyətli hissəsi Qacar İranına köçmüşdü. 1811-ci ildə Rusiya imperiyasının daxili işlər naziri O. P. Kozodevlevə təqdim edilən hesabatda Qarabağ xanlığında 12.000 ailənin yaşadığı, onların yalnız 2.500-nün erməni, qalanlarının isə “tatar” [*Qeyd: Tarixi sənədlərdə və mənbələrdə Azərbaycan türklərinə tez-tez “tatar” adı verilmişdir. Bu termin XIX–XX əsrlərdə Rusiya imperiyası və digər xarici mənbələrdə Qafqazın müsəlman türkdilli əhalisini ümumi şəkildə ifadə etmək üçün istifadə olunurdu. Məqalədə mənbələrin dilinə sadiq qalmaq məqsədilə “tatar” ifadəsi işlədilsə də, burada nəzərdə tutulan əhali əslində azərbaycanlılar, yəni müasir milli kimliyi ilə Azərbaycan türkləridir*]. (azərbaycanlı müsəlman) olduğu qeyd edilirdi [*Prisoyedineniye Vostochnoy Armenii k Rossii*, 1972, s.560-561]. Bu məlumatlara görə, əhalinin təxminən 79,2%-i müsəlman, 20,8%-i isə erməni idi.

Lakin digər rəsmi mənbələr əhali sayında ciddi uyğunsuzluqlar göstərir. General Kotlyarevski və Qafqaz ordusunun komandanı Yermolovun 1812-1817-ci illərdəki raportları bu dövrdə əhali sayının kəskin şəkildə azaldığını göstərir. Yermolov 1812-ci ildə Qarabağ xanlığında cəmi 3.080 ailənin qaldığını, bu sayın 1817-ci ilə qədər 7.872 ailəyə yüksəldiyini bildirirdi [STsIA, f. 2, siy. 1, iş 612, v. 35-38; AKAK, tom 6, ch. 1, dok. 1265]. Bu fərqlər Rusiya hərbi idarəçiliyinin statistik məlumatları müəyyən siyasi məqsədlərlə manipulyasiya etdiyini ehtimal etməyə əsas verir.

1823-cü il təsviri bölgənin inzibati-sosial xəritəsini dəqiq şəkildə ortaya qoyur. Müharibədən öncə Sisiyan mahalında 2000-dən çox ailə yaşayırdısa, müharibə nəticəsində əhalinin böyük qismi Qacar İranına köçmüş və ya əsir alınmış, kəndlər boşalmışdı. Sonradan Rusiya xidmətində olan kapitan Hacı Ağalar bəyin təşəbbüsü ilə bu ərazilərə Qacar İranından əhali gətirilmiş, onların bir hissəsi ermənilər olmuşdur. Bu proses 1828-ci il Türkmənçay müqaviləsindən əvvəl də aparılırdı və sistemli xarakter daşıyırdı.

Ən yüksək erməni əhalisi Tatev mahalında qeydə alınmışdı- 698 ailə. Digər mahallarda ermənilər azlıq təşkil edir, bəzi yerlərdə isə ümumiyyətlə mövcud deyildilər: Sisiyan mahalında 104 ailə, Bərgüşadda 25 ailə, Püsyan və Çavundurda isə cəmi 6 ailə. Bağabürc və Qaraçorlu mahallarında isə erməni əhalisi yaşamırdı. Ümumilikdə Qarabağ xanlığının 9 mahalında 1000-ə yaxın erməni ailəsi qeyd olunmuşdu ki, onların da əksəriyyəti Qacar İranından köçürülmüşdü [*Opisanie Karabakhskoy provintsii*, 1823].

Bu dövrdə həyata keçirilən köçürmə siyasəti təkcə demoqrafik strukturu dəyişmək deyil, həm də imperiya üçün strateji əhəmiyyət daşıyan inzibati

mərkəzlərdə erməni icmalarının yerləşdirilməsini hədəfləyirdi. Xəzinəyə məxsus torpaqlarda məskunlaşdırma siyasəti erməniləri idarə olunan və imperiyaya loyal etnik qrup kimi möhkəmləndirməyə xidmət edirdi. Gorus kimi inzibati mərkəzlərin seçilməsi də bu məqsədin bir hissəsi idi.

Beləliklə, 1805-1828-ci illərdə Zəngəzurun inzibati-hüquqi statusunun formalaşması Rusiya imperiyasının Cənubi Qafqazdakı strateji maraqları çərçivəsində həyata keçirilmişdir. Bu dövr həm də gələcək etnik balansın dəyişdirilməsinə yönəlmiş planlı tədbirlərin başlanğıc mərhələsini təşkil edirdi.

**3.İnzibati dəyişikliklər və Zəngəzur mahalının formalaşması (1828-1874)**

1828-ci il Türkmənçay müqaviləsindən sonra Cənubi Qafqazda inzibati idarəetmə sisteminin yenidən təşkili Rusiya imperiyasının əsas prioritetlərindən birinə çevrildi. Bu dövr həm də Zəngəzurun inzibati vahid kimi formalaşmasının hüquqi-siyasi əsaslarının rəsmiləşdiyi mərhələ idi.

1832-1833-cü illərdə aparılan kameral təsvirə əsasən, Qarabağ əyalətində ilk dəfə "Zəngəzur mahalı" adlı inzibati vahid yaradılmışdır [EMA, f. 93, s. 1, iş. 49-51]. Mahal doqquz minbaşılıqdan ibarət idi: Qaraçorlu, Püsyan, Sisyan, Tatev, Mığrı-Güney, Çavundur, Bərgüşad, Zəngəzur və Qapan. Bu inzibati quruluşun tərkibində əvvəlki mahalların bəziləri ləğv edilərək birləşdirilmişdi.

Kameral təsvirin məlumatına görə, 1832-ci ildə Zəngəzur mahalında 4.818 vergi mükəlləfiyyətli ailə yaşayırdı. Bunların 2.564-ü tatar (müsəlman), 1.422-si isə erməni ailələri idi. Ümumi əhali sayı 18.826 nəfər olmuşdur ki, bunun 61,03%-i tatar, 38,97%-i erməni idi. Etnik yerləşimdə diqqət çəkən nüans ondan ibarət idi ki, Püsyan minbaşılığında yalnız tatarlar, Tatev mahalında isə yalnız ermənilər yaşayırdı. Zəngəzur minbaşılığında isə 687 erməni ailəsi (3.672 nəfər) cəmləşmişdi. Bu etnik bölgü Rusiya imperiyasının inzibati mərkəzləri etnik baxımdan seçməklə formalaşdırdığını göstərir; Gorusun inzibati mərkəz seçilməsi də bunun nümunəsidir.

Mənbələr göstərir ki, erməni ailələrinin əksəriyyəti imperiyaya məxsus xəzinə torpaqlarında məskunlaşdırılmışdı. Məsələn, yalnız Qarabağ xan ailəsinə məxsus kəndlərdə 139 ailə (848 nəfər) erməni yaşayırdı, halbuki xəzinə torpaqlarında bu rəqəm 28.066 nəfərə çatırdı. Bu fakt imperiyanın erməniləri strateji məqsədlərlə dövlət nəzarətində olan ərazilərə yerləşdirdiyini sübut edir.

1841-ci ildə aparılan inzibati islahatlar nəticəsində Qarabağ əyaləti ləğv edildi və ərazisində "Qarabağ qəzası" yaradıldı. Zəngəzur mahalı isə Zəngəzur və Mığrı sahələri kimi iki hissəyə bölünərək bu qəzanın tərkibinə daxil edildi. 1849-cu ildə Mığrı sahəsi İrəvan quberniyasının yeni yaradılan Ordubad qəzasına verildi, Qarabağ qəzası isə Şuşa qəzası adlandırıldı [*Polnoye sobranie zakonov Rossiyskoy imperii*, 1847, dok. № 20672].

1867-ci ildə Rusiya imperiyası Cənubi Qafqazda növbəti böyük inzibati dəyişiklik həyata keçirdi. Bu dəfə Mığrı sahəsi yenidən Zəngəzur qəzasına birləşdirildi və Yelizavetpol quberniyası tərkibində ayrıca inzibati vahid kimi formalaşdırıldı [*Polnoe sobranie zakonov Rossiiskoi imperii* 1867, dok. № 45259]. Beləliklə, XIX əsrin ikinci yarısında Zəngəzur qəzası keçmiş Şuşa qəzasının Zəngəzur sahəsi ilə Mığrı sahəsinin ərazilərinin birləşməsi əsasında yenidən təşkil olundu.

1874-cü ildə aparılan kameral siyahıyaalma bölgədəki etnik balansın dəyişməyə başladığını göstərirdi [EMA, f.93, s.1, iş.189-193]. Siyahıyaalmaya əsasən, Zəngəzur qəzasında 9.555 tatar ailəsi (43.851 nəfər) və 5.274 erməni ailəsi (39.054 nəfər) yaşayırdı. Əlavə olaraq, burada ilk dəfə 80 rus (molokan) ailəsi də qeydə alınmışdı. Müqayisə üçün, 1832-ci ildə tatarların ümumi əhali içində payı 61,03% olduğu halda, 1874-cü ildə bu nisbət təxminən bərabərləşmişdi. Bu dəyişiklik təbii artımın deyil, inzibati planlaşdırma və köçürmə siyasətinin nəticəsi idi [Əhmədli, 2021, s.15-16].

1832–1874-cü illər arasında baş verən bu inzibati dəyişikliklər Zəngəzuru təkcə lokal idarəetmə vahidi olmaqdan çıxararaq, imperiya üçün strateji əhəmiyyətli sərhəd bölgəsinə çevirdi. Eyni zamanda, etnik balansın tədricən dəyişdirilməsi, gələcəkdə bölgədə baş verəcək milli-siyasi qarşıdurmaların demoqrafik bazasını hazırladı.

## 4.Etnodemoqrafik dəyişikliklər və köçürmə siyasəti (1874-1917)

1874-cü il kameral siyahıyaalmasının nəticələri göstərirdi ki, Zəngəzur qəzasında etnik nisbətlər əvvəlki dövrlərə nisbətən ciddi şəkildə dəyişməyə başlamışdı. Siyahıyaalmanın məlumatına əsasən, bölgədə 9.555 tatar (müsəlman) ailəsi (43.851 nəfər), 5.274 erməni ailəsi (39.054 nəfər) və 80 rus (molokan) ailəsi yaşayırdı. Bu rəqəmlər 1832-ci ildə qeydə alınmış 61,03%-lik müsəlman üstünlüyünün artıq demək olar ki, bərabərləşdiyini göstərirdi. Belə dəyişikliklərin təbii artım nəticəsində baş verməsi demoqrafik qanunauyğunluqlara zidd idi. XIX əsrdə əhali artımı illik 1,5–2% civarında olduğundan, 40 il ərzində bu səviyyədə balans dəyişikliyi yalnız kütləvi köçürmə yolu ilə mümkün ola bilərdi.

Köçürmə siyasətinin intensivləşməsinə təsir edən əsas hadisələrdən biri 1877-1878-ci illər Rus-Osmanlı müharibəsi oldu. Müharibə nəticəsində Osmanlı imperiyasından Qafqaza, xüsusilə Qarsa və Sürməliyə on minlərlə erməni ailəsi köçürüldü. N. Şavrovun məlumatına görə, bu illərdə təkcə Anadoludan Qarsa 50.000, Sürməliyə isə 35.000 erməni gətirilmişdi [Şavrov, 1911]. Mənbələrdə bu köçlərin bir hissəsinin Zəngəzur qəzasına yönəldildiyi göstərilir. Bu prosesdə əsas məqsəd imperiyaya etibarlı sayılan əhalinin sərhəd bölgələrində yerləşdirilməsi idi.

Kameral siyahıyaalma materialları etnik payın necə dəyişdiyini dəqiq göstərir. 1874-1886-cı illər arasında erməni əhalisinin sayı 39.054 nəfərdən

57.425 nəfərə yüksəlmiş, yəni 47%-lik artım qeydə alınmışdı. Müsəlman əhali isə eyni dövrdə daha yavaş templə artmışdı. Bu fərqin təbii artımla izahı mümkün olmadığından, mənbələrdə də təsdiqləndiyi kimi, əsas səbəb kütləvi köçürmələr idi [Əhmədli, 2021, s.18].

Bu köçürmə siyasətinin həyata keçirilməsi təkcə hərbi-strateji məqsədlərlə bağlı deyildi, həm də iqtisadi və inzibati hədəflərə xidmət edirdi. Xəzinəyə məxsus torpaqların yeni köçürülən erməni əhalisinə verilməsi, onların vergi güzəştləri ilə təmin olunması və dövlət strukturlarında xidmətə cəlb edilməsi Zəngəzurda ermənilərin sosial-siyasi mövqeyini gücləndirirdi. Bu prosesdə Qafqaz canişinliyi və İrəvan quberniyası administrasiyası xüsusi fəallıq göstərirdi.

1897-ci il Ümumrusiya siyahıyaalması Zəngəzurdakı etnik dəyişikliklərin daha bir mərhələsini əks etdirir. Siyahıyaalma nəticələrinə görə, ermənilər inzibati mərkəzlərə, ticarət yollarına və strateji yüksəkliklərə yaxın kəndlərdə daha sıx yerləşdirilmişdilər. Müsəlman əhali isə daha çox dağlıq və iqtisadi baxımdan əlverişsiz ərazilərdə məskunlaşmışdı. Bu məkan bölgüsü gələcək hərbi-siyasi qarşıdurmalarda üstün mövqe təmin etmək məqsədi güdürdü.

1890-1906-cı illər dövrü Zəngəzur bölgəsinin tarixində etnososial qütbləşmənin kəskinləşdiyi və gələcək geniş miqyaslı etnik münaqişələrə zəmin yaradan ilkin qarşıdurmaların meydana çıxdığı kritik mərhələ kimi səciyyələnir. Bu mərhələdə cəmiyyətin daxili strukturunda baş verən dəyişikliklər təkcə yerli amillərlə deyil, Rusiya imperiyasının regionda apardığı inzibati və etnodemoqrafik mühəndislik siyasəti ilə birbaşa bağlı idi.

İlk olaraq, XIX əsrin sonlarından etibarən imperiyanın inzibati idarəetmə strukturunda ruslaşdırma meyllərinin güclənməsi, yerli qeyri-rus etnosların, xüsusən də ermənilərin və tatarların sosial və siyasi mövqelərinə birbaşa təsir göstərdi. Əgər XIX əsrin ortalarından etibarən Qafqazın idarə olunmasında qeyri-bərabər regional inzibati təşklatlanma və qeyri-müsəlmanların marginal vəziyyətə salınması müşahidə olunurdusa, bu proses 1890-cı illərin sonlarından etibarən daha sistemli və yönlü şəkildə aparılmağa başlandı. III Aleksandr və ardınca II Nikolayın dövründə tətbiq olunan “pravoslav-slavyan-sintezi” çərçivəsində bütün cənubi Qafqazda pravoslav təbliğatının gücləndirilməsi, rus məktəblərinin açılması və erməni müəllimlərinin slavyan əsilli müəllimlərlə əvəzlənməsi etnososial qarşıdurmanın başlanğıcına səbəb oldu.

Bu dövrdə baş verən etnososial dinamikanın əsas parametrlərindən biri kəndli icmalarının təbəqələşməsi və torpaq məsələlərinin etnik zəmində yenidən bölüşdürülməsi idi. Bu isə 1828–1897-ci illərdə həyata keçirilmiş erməni köçürmələrinin demoqrafik nəticələrinin konkret sosial-siyasi müstəviyə daşınması demək idi. Erməni kəndliləri və ruhanilərinin geniş torpaq sahələrinə sahib olması, tatar əhalisi arasında iqtisadi narazılıq və sosial

sıxışdırılmışlıq hissini artırdı. Bu ziddiyyətlər tədricən etnik konfliktlərə çevrilməyə başladı.

XX əsrin əvvəllərinə qədər aparılan bu köçürmə siyasəti nəticəsində Zəngəzur artıq əvvəlki etnik balansını itirmişdi. 1914-cü ilə aid statistik məlumatlar göstərir ki, bəzi inzibati dairələrdə ermənilər artıq nisbi çoxluğa çevrilmişdilər. Bu, 1820-ci illərdə bölgədə açıq-aşkar azlıq təşkil edən erməni əhalisinin təxminən 90 il ərzində planlı şəkildə üstün mövqeyə gətirildiyini nümayiş etdirir. Statistik məlumat Zəngəzur əhalisini ümumi 209,951 nəfər olmasını və onlardan 118,146 nəfərinin müsəlman, 89,906 nəfərinin isə erməni olmasını qeyd edir [*Kavkazskiy kalendar` na 1915 god,* 1914, 231-233].

1917-ci ilin məlumatına görə, Zəngəzur qəzasında tatarların payı təxminən 55%, ermənilərin isə 43,3% təşkil edirdi. 1916-cı ilin Qafqaz təqvimində müsəlman əhalinin sayı, o cümlədən kürdlər də daxil olmaqla, təxminən 54,5% göstərilmişdir, ermənilərin nisbəti isə 44,63% olmuşdur [*Kavkazskiy kalendar` na 1917 god,* 1916, 190-197]. Erməni müəllifi B.İşxanyan da öz tədqiqatlarında bu tarixi dövr üçün Zəngəzur qəzasında müsəlman əhalinin ümumi sayını 59,98 %-lə üstünlük təşkil etdiyini qeyd edir. Oxşar rəqəmləri erməni əsilli ABŞ tədqiqatçısı R.Hovannisian tərəfindən də təsdiqlənir. Onun hesablamalarına görə 1916-cı ildə Zəngəzur qəzasında təxminən 120.000 nəfər müsəlman və 101.000 nəfər erməni əhalisi yaşayırdı [R.Hovannisian, 1967].

Beləliklə, 1874–1917-ci illər arasında Zəngəzurda aparılan köçürmə və məskunlaşdırma siyasəti yalnız etnik tərkibi dəyişməmiş, həm də bölgənin sosial-iqtisadi strukturu və inzibati idarəçiliyini köklü surətdə transformasiya etmişdir. Bu dəyişikliklər, gələcəkdə baş verəcək milli ziddiyyətlərin və ərazi iddialarının demoqrafik əsasını təşkil etmişdir. Etnik mühəndisliyin nəticəsində XX əsrin əvvəllərinə doğru Cənubi Qafqazda tətbiq edilməsi planlaşdırılan zemvstvolar zamanı isə hər iki icmalar arasında ziddiyyətlər pik həddə çatdırılmış oldu. Bu dövrdə ermənilər Cənubi Qafqazda artıq etnik əsaslara söykənən inzibati islahatlar tələb etməyə başlamış oldular. Bu tələblərə əsasən Cənubi Qafqazda Aleksandropol, Gandzak və İrəvan adlı yenidən formalaşdırılacaq etnik cəhətdən ermənilərin yaşadığı quberniyalar təşkil olunmalı idi. Bu tələblər 1917-ci ildə Rusiyada formalaşan müvəqqəti hökümətin Daxili İşlər Nazirliyi tərəfindən hazırlanan layihədə də öz əksini tapdı. Layihəyə əsasən, Yelizavetpol quberniyasının ərazisinin bazasında ikinici - Gandzak quberniyası yaradılmalı və ona "digər erməni qəzaları" ilə bərabər Zəngəzur qəzasının Teymur-Muskanlı, Dondarlı, Şıxavənd, Xocaxana, Mollaxana və Rəbəndə kənd icmalarını çıxmaqla bütün ərazisi daxil edilməli idi [STsIA, f. 2080, siy. 1, iş 707, v. 7-8].

Bu layihə həyata keçəcəyi təqdirdə inzibati sərhədləri yenidən formalaşdırılacaq Zəngəzur qəzasında erməni əhalisinin sayı guya 69 %, müsəlmanları isə 30% olması gözlənirdi [STsIA, f. 2080, siy. 1, iş 707, v.7-8].

Müsəlman nümayəndələr bu layihəyə kəskin etiraz edərək öz əks-layihələrini irəli sürdülər. Onlar sərhəddə yerləşən kantonların etnik tarazlığını pozmamaq, ermənilərlə tatarlar arasında təbii yaşayış bölgüsünü saxlamaq və Qarabağ bölgəsində kompakt erməni inzibati vahidinin qarşısını almağa çalışırdılar. Onların layihəsində, xüsusilə Zəngəzur kantonu "qarışıq ərazi" kimi təqdim olunurdu, burada müsəlmanların say üstünlüyü olduğu qeyd edilirdi. Əlavə olaraq, "yuxarı Qazax" və "Cavanşir" kimi kantonlarda müsəlman çoxluğu qorunurdu [ARDA, f. 970, siy.1, iş 257, v. 14-15]

Aparılan müzakirələr nəticəsində müsəlman əhalinin təkidi və müaviməti ilə bu layihəni həyata keçirmək mümkün olmadı və müvəqqəti hökümət tərəfindən bu ərazilər mübahisəli elan olunmuşdu. Bu sonrakı dövrdə Azərbaycan və Ermənistan olaraq iki dövlət arasında uzun müddətli etnik münaqişə və müharibənin səbəblərindən əsasını təşkil etmişdir.

**5.Nəticə**

Bu məqalənin məqsədi Zəngəzur bölgəsinin XIX əsrdəki inzibati-hüquqi transformasiyasını və etnodemoqrafik dəyişikliklərini arxiv sənədləri və rəsmi statistika əsasında yenidən qiymətləndirmək idi. Aparılan təhlil göstərir ki, Zəngəzur təkcə coğrafi və inzibati vahid kimi formalaşmayıb, eyni zamanda Rusiya imperiyasının Cənubi Qafqazdakı strateji maraqlarına xidmət edən məqsədyönlü etnik-siyasi mühəndisliyin laboratoriyasına çevrilmişdir. Bu əsas qənaət aşağıdakı analitik bəndlərlə dəstəklənir.

*Hüquqi-inzibati baza və imperial seçimlər:* Gülüstan (1813) və Türkmənçay (1828) müqavilələri regionun hüquqi mənzərəsini dəyişərək Qarabağ və Zəngəzurun Rusiya üçün birbaşa maraq zonası olmasına səbəb oldu [Gülüstan; "Turkmenshayskiy traktat...", *Polnoye sobranie zakonov*, 1830]. Rusiya administrasiyasının 1820-1840-cı illərdə qəbul etdiyi qərarlar və 1840/1841/1846 islahatları nəticəsində yerli xanlıq strukturlarının ləğvi və yeni inzibati vahidlərin- qəza və sahələrin- yaradılması imperiyanın təhlükəsizlik və idarəçilik prioritetlərini həyata keçirməsinə xidmət etdi [*Polnoye sobranie zakonov Rossiyskoy imperii*, 1847]. Bu qanuni-inzibati baza koloniya siyasətinin texniki şərtlərini təmin etdi: sərhəd nəzarəti, torpaq təyinatı və məskunlaşdırma mexanizmləri.

*Zəngəzurun institutlaşdırılması və seçilmiş məskunlaşma:* 1832-1833-cü illərin kameral təsviri Zəngəzurun rəsmi inzibati vahid kimi ilk dəfə strukturlaşdırıldığını göstərir- doqquz minbaşılıqdan ibarət mahalın yaradılması və əhalinin etnik-statistik bölüşdürülməsi [EMA, f. 93, s. 1, iş. 49-51]. Bu sənəd inzibati xəritələnmənin eyni zamanda etnik xəritələnmə olduğunu sübut edir: inzibati mərkəzlər (məs. Gorus) və müəyyən sahələr erməni məskunlaşması üçün əlverişli pozisiyalarda formalaşdırıldı. Bu seçimlər təsadüfi deyil, dövlət maraqlarına hesablanmış məqsədli yerləşdirmə məntiqini əks etdirir.

*Demoqrafik dinamika- təbii artım yox, köçürmə:* Kameral və sonrakı siyahıyaalmaların müqayisəsi demoqrafik dəyişikliklərin «təbii artım»la izah edilə bilməyəcəyini göstərir. 1832-1833-cü illərdə Zəngəzurda müsəlmanların (tatarların) üstünlüyü müşahidə olunurdu, lakin 1874-cü il kameral siyahıyaalma nəticələri tarazlığın ciddi surətdə dəyişdiyini göstərir (9.555 tatar ailəsi- 43.851 nəfər; 5.274 erməni ailəsi- 39.054 nəfər) [Əhmədli, 2021, s.15-16]. 1874-1886 arasında isə erməni sayının 39.054-dən 57.425-ə qalxması təbii artım hədlərini xeyli aşır və kütləvi miqrasiya ilə ən inandırıcı şəkildə izah olunur. Belə miqrasiyaların mühüm mənbəyi 1877-1879-cu illərin müharibə nəticəsində baş verən köçlərdir [N.Şavrov]. Bu məlumatlar Zəngəzurda demoqrafik dəyişikliklərin planlı və xarici mənbəli daşınmalarla birbaşa bağlı olduğunu göstərir.

*Mexanizmlər: torpaq, vergi və inzibati təşviq:* Arxiv materialları göstərir ki, erməni köçürülənlərin böyük hissəsi imperiya xəzinəsinə məxsus torpaqlara yerləşdirilmiş, onlar üçün vergi və torpaq güzəştləri tətbiq olunmuş, kilsə və icma institutları müəyyən mənada dəstəklənmişdir. Bu, sadəcə demoqrafik dəyişiklik yox, sosial-iqtisadi ön şərtlərin (torpaq paylanması, vergi rejimi, inzibati yerləşdirmə) yaratdığı strukturlaşdırılmış üstünlük idi. Nəticədə erməni icmaları inzibati və iqtisadi olaraq mərkəzləşdiyi üçün zamanla siyasi təsir dairələri formalaşdı.

*Mənbələrin etibarı və məhdudiyyətlər:* Bu tədqiqatın gücü onun arxiv əsaslılığıdır: kameral təsvirlər, quberniya siyahıyaalmaları və imperiya fərmanları zəngin ilkin məlumat verir. Eyni zamanda, mənbələrdə rast gəlinən uyğunsuzluqlar (məs., müxtəlif dövrlərdə əhali saylarında fərqli rəqəmlər və etnik kateqoriyaların dəyişdirilməsi) imperial idarəçiliyin statistik manipulyasiyalarının izlərini göstərir. Rusiya arxiv sənədlərinin özləri müəyyən siyasi məqsədlərlə tərtib edilmiş ola bilər- buna görə də nəticələri şərh edərkən mənbə məkanını genişləndirmək [Osmanlı və İran arxivi materialları, yerli məhkəmə və din xadimlərinin qeydiyyatları, kilsə/parish qeydləri] vacibdir.

*Tarixi və nəzəri töhfə:* Bu araşdırma Zəngəzurun demoqrafik və inzibati dəyişikliklərini sadəcə «tarixi təsadüf» yox, imperiya səviyyəli strateji seçim və instrument kimi oxuyur. Belə oxunuş klassik milli və etnik tarixçilikdən fərqli olaraq kolonial inzibati texnikaların- torpaq siyasəti, məskunlaşdırma, siyahıyaalma/etnik kateqoriyalaşdırma- uzunmüddətli siyasi nəticələrini vurğulayır. Bu, regionun sonrakı 1918-1923 və daha sonra 1988-1994 illərdəki münaqişələrə gətirən demoqrafik-institutsional əsasları anlamaqda mühüm metodoloji çərçivə yaradır.

*Məhdudiyyətlər və ehtiyatlılıq:* Araşdırma iddia edir ki, Zəngəzurda etnik dəyişikliklərdə imperiya siyasətinin rolu substantiv olmuşdur. Buna baxmayaraq, son nəticələrə ehtiyatla yanaşmaq lazımdır: statistik mənbələrdə

qüsurlar, yerli aktların itməsi və ya qeyri-tam olması, həmçinin miqrasiya motivlərinin çoxşaxəliliyi- iqtisadi, dini, təhlükəsizlik səbəbləri- nəticələrin interpretasiyasına təsir edə bilər. Buna görə də təklif olunan komparativ və multi-metodik yanaşma zəruridir.

Beləliklə, Zəngəzurun XIX əsrdəki təcrübəsi göstərir ki, imperiya səviyyəli inzibati islahatlar və məskunlaşdırma siyasətləri bir regionun etnik-demoqrafik toxumasını qısa vaxt ərzində və davamlı surətdə dəyişdirə bilir. 1832-1874 dövründə həyata keçirilmiş inzibati kartoqrafiya, torpaq təyinatları və köç siyasətləri nəticəsində formalaşmış yeni etnik nisbətlər yalnız statistik göstərici deyil- onlar regionun siyasi taleyini və gələcək münaqişə potensialını müəyyənləşdirən struktur elementlərinə çevrildi [*Opisanie Karabakhskoy provintsii*, 1823; EMA, f. 93; *Polnoye sobranie*, 1847; Əhmədli, 2021; N.Shavrov, 1911]. Bu məqalə həmin proseslərin mexanizmlərini, intensivliyini və uzunmüddətli nəticələrini arxiv faktları ilə bağlı-qabaq gətirərək Cənubi Qafqaz tədqiqatlarına metoda əsaslanan, sənədli bir töhfə verir.

## 6.ƏDƏBİYYAT


**1.** (1874). *Akty, sobrannye Kavkazskoy Arxeograficheskoy Komissiyey* (Tom 6, ch. 1). Tiflis.

**2.** Berzhe, A. P. (red.). (1875). Dogovor mezhdu Rossiey i Persiey, zaklyuchennyy v sele Gyulistan 12 oktyabrya 1813 goda (T. 1 v *Sbornike traktatov i konventsiy, zaklyuchennykh Rossiey s inostrannymi derzhavami*, 607–609). Sankt-Peterburg: Tipografiya Vtorogo Otdeleniya Sobstvennoy E.I.V. Kantselyarii.

**3.** *Kavkazskiy kalendar' na 1915 god*. Otdel Statisticheskiy. (Red. A. A. El'zenger i N. P. Stel'mashchuk). Tiflis: Tipografiya kantselarii namestnika ego Imperatorskogo Velichestva E.I.V. na Kavkaze, 1914.

**4.** *Kavkazskiy kalendar' na 1917 god*. Otdel Statisticheskiy. (Red. A. A. El'zenger i N. P. Stel'mashchuk). Tiflis: Tipografiya kantselarii namestnika ego Imperatorskogo Velichestva E.I.V. na Kavkaze, 1916.

**5.** *Obozrenie Rossiyskikh vladeniy Za Kavkazom v statisticheskom, etnograficheskom, topograficheskom otnosheniyakh, proizvedennykh i izdannykh po vysochayshemu soizvoleniyu* (Chast' III). Sankt-Peterburg: V Tipografii departamenta vneshney torgovli, 1836.

**6.** *Opisanie Karabakhskoj provintsii, sostavlennoe v 1823 godu*. Tiflis: V Tipografii Glavnogo Upravleniya Namestnika Kavkazskogo, 1866.

**7.** *Polnoe sobranie zakonov Rossiiskoi imperii* (Sobranie vtoroe, tom XLII, chast' 2.). (1867). Sankt-Peterburg: Tipografiia Vtorogo otdeleniia Sobstvennoi Ego Imperatorskogo Velichestva kantseliarii.

**8.** *Pervaya Vseobshchaya perepis naseleniya Rossiyskoy Imperii 1897 g.* Tablica LXIII. Elisavetpolskaya guberniya. Sankt-Peterburg, 1904.
**9.** Shavrov, N. M. (1911). *Novaya ugroza russkomu delu v Zakavkazye.* Sankt-Peterburg: Tipografiya V. Kirshbauma.
**10.** *Svod statisticheskikh dannykh o naselenii Zakavkazskogo kraya, izvlechenykh iz posemejnykh spiskov 1886 goda.* Tiflis: Tipografiya I. Martirosyantsa, 1893.
**11.** Turkmenshayskiy traktat mezhdu Rossiey i Persiey. In *Polnom sobranii zakonov Rossiyskoy Imperii* (385–392). Sankt-Peterburg, 1830.
**12.** *Voenno-statisticheskoe obozrenie Rossiiskoi imperii* (T. XVI, chast′ 6: Erivanskaiaguberniia). (1855). Sankt-Peterburg.
**13.** *Azərbaycan Respublikası Dövlət Arxivi*, f. 970, siy. 1, iş 257.
**14.** *Azərbaycan Respublikası Dövlət Tarix Arxivi*, siy. 1, iş 13.
**15.** *Sakartvelos Tsentraluri Istoriuli Arkivi (STsIA) - (Gürcüstanın Mərkəzi Tarix Arxivi)*, f. 2080, siy. 1, iş 707.
**16.** *Sakartvelos Tsentraluri Istoriuli Arkivi (STsIA) - (Gürcüstanın Mərkəzi Tarix Arxivi)*, f. 2, siy. 1, iş 612.
**17.** *Ermənistan Milli Arxivi (EMA)*, f. 93, siy. 1, iş 49–51.
**18.** *Ermənistan Milli Arxivi (EMA)*, f. 93, siy. 1, iş 189–193.
**19.** Əhmədli, N. (2021). *Zəngəzur mahalının kameral təsviri 1832–1833-cü illər.* Bakı: Elm və Təhsil.
**20.** Əhmədli, N. (2021). *Zəngəzur qəzasının kameral təsviri. 1874-cü il.* Bakı: Elm və Təhsil.
**21.** Hovannisian, R. G. (1967). *Armenia on the Road to Independence, 1918.* Berkeley: University of California Press.
**22.** Imranli, K.-L. (2013). *The First Armenian Republic and Its Territorial Conflicts with Azerbaijan.* (PhD diss.) University of Birmingham.
**23.** Imranli, K. (2006). *Sozdanie armyanskogo gosudarstva na Kavkaze: Istoki i posledstviya.* Moskva: Nauchno-izdatel’skiy tsentr “Ladomir”.
**24.** Shavrov, N. (1911). *Novaya ugroza russkomu delu v Zakavkaz’ye: predstoyashchaya rasprodazha Mugani inorodtsam.* Sankt-Peterburg: Tipografiya Redaktsii periodicheskikh izdaniy Ministerstva Finansov.

## REFERENCES

**1.** (1874). *Acts collected by the Caucasian Archaeographic Commission* (Vol. 6, Part 1). Tiflis. (in Russian)
**2.** Berzhe, A. P. (Ed.). (1875). Treaty between Russia and Persia concluded in the village of Gulistan on October 12, 1813 (Vol. 1 in *Collection of treaties and conventions concluded by Russia with foreign powers*, pp. 607–609). Saint Petersburg: Printing House of the Second Department of His Imperial Majesty’s Own Chancellery. (in Russian)

3. *Caucasian Calendar for 1915.* Statistical Department. (A. A. Elzenger & N. P. Stel'mashchuk, Eds.). Tiflis: Printing House of the Office of His Imperial Majesty's Viceroy in the Caucasus, 1914. (in Russian)
4. *Caucasian Calendar for 1917.* Statistical Department. (A. A. Elzenger & N. P. Stel'mashchuk, Eds.). Tiflis: Printing House of the Office of His Imperial Majesty's Viceroy in the Caucasus, 1916. (in Russian)
5. *Review of the Russian possessions beyond the Caucasus in statistical, ethnographic, and topographic respects, produced and published by supreme permission* (Part III). Saint Petersburg: Printing House of the Department of Foreign Trade, 1836. (in Russian)
6. *Description of the Karabakh Province compiled in 1823.* Tiflis: Printing House of the Main Directorate of the Caucasian Viceroy, 1866. (in Russian)
7. *Complete collection of laws of the Russian Empire* (2nd Collection, Vol. 42, Part 2). (1867). Saint Petersburg: Printing House of the Second Department of His Imperial Majesty's Own Chancellery. (in Russian)
8. *First General Census of the Population of the Russian Empire, 1897.* Table LXIII. Elizavetpol Province. Saint Petersburg, 1904. (in Russian)
9. Shavrov, N. M. (1911). *A new threat to the Russian cause in Transcaucasia.* Saint Petersburg: V. Kirshbaum Printing House. (in Russian)
10. *Collection of statistical data on the population of the Transcaucasian region extracted from family lists of 1886.* Tiflis: I. Martirosyants Printing House, 1893. (in Russian)
11. Turkmenchay Treaty between Russia and Persia. In *Complete Collection of Laws of the Russian Empire* (pp. 385–392). Saint Petersburg, 1830. (in Russian)
12. *Military-statistical review of the Russian Empire* (Vol. 16, Part 6: *Erivanskaiaguberniia*). (1855). Saint Petersburg. (in Russian)
13. *Azerbaijan State Archive* (ARDA), f. 970, siy. 1, ish 257. (in Azerbaijani)
14. *Azerbaijan State Historical Archive* (ARDTA), siy. 1, ish 13. (in Azerbaijani)
15. *National Historical Archive of Georgia* (STsIA), f. 2080, siy. 1, ish 707. (in Georgian)
16. *National Historical Archive of Georgia* (STsIA), f. 2, siy. 1, ish 612. (in Georgian)
17. *National Archive of Armenia* (EMA), f. 93, siy. 1, ish 49–51. (in Armenian)
18. *National Archive of Armenia* (EMA), f. 93, siy. 1, ish 189–193. (in Armenian)
19. Ahmadli, N. (2021). *Cameral description of Zangezur district in 1832–1833.* Baku: Elm va Tehsil. (in Azerbaijani)

**20.** Ahmadli, N. (2021). *Cameral description of Zangezur uyezd (1874).* Baku: Elm va Tehsil. (in Azerbaijani)
**21.** Hovannisian, R. G. (1967). *Armenia on the road to independence, 1918.* Berkeley: University of California Press. (in English)
**22.** Imranli, K.-L. (2013). *The first Armenian Republic and its territorial conflicts with Azerbaijan* (PhD dissertation). University of Birmingham. (in English)
**23.** Imranli, K. (2006). *Formation of the Armenian state in the Caucasus: Origins and consequences.* Moscow: Scientific Publishing Center “Ladomir”. (in Russian)
**24.** Shavrov, N. (1911). *A new threat to the Russian cause in Transcaucasia: The forthcoming sale of Mughan to foreigners.* Saint Petersburg: Printing House of the Editorial Office of the Periodical Publications of the Ministry of Finance. (in Russian)